«Monitor» jurnalı, №1(9), 2002

**Zakir Rzayev**

## NÖVBƏ KİMİNDİR?

Bu həftə daha iki Qərb şirkəti Odlar Yurdunu tərk etdi: Böyük Britaniyanın «Consafe» və Yaponiyanın «Niccho Iwai». Onlar iki il öncə yaranmış xoşagəlməz meylləri davam etdirdi. Bu dövr ərzində bir neçə iri və çoxlu sayda xırda şirkət ölkəni tərk edib. Şübhəsizdir ki, hadisələrin miqyası dərin nəticəli kütləvi olayların baş verməsini aşkar göstərir.
Hakim rejimin başlıca nailiyyətlərindən biri devrilib və ayaq altında tapdalanıb. Qeyd etmək olar ki, xarici şirkətlər Azərbaycanın siyasi-iqtisadi rejiminin əleyhinə səs verirlər. Özü də ölkə üçün ən xoşagəlməz şəkildə – ayaqları ilə səs verirlər. Qeyd edilməlidir ki, şirkətlərin ölkəni tərk etməsi qəti və çox zaman da həmişəlik bir addımdır. Ciddi şirkət bu addımı atmamışdan öncə mövcud olan bütün təsir üsullarından istifadə edir. Nümayəndəliyin bağlanması qoyulmuş bütün investisiyaların itirilməsi deməkdir. Belə addımın atılması üçün çox ciddi səbəblər olmalıdır.
Şirkət rəhbərləri arasında keçirilən sorğu göstərib ki, şirkətlərin ölkəmizi tərk etməsi üçün ciddi səbəbləri olub. Bütövlükdə səbəb çox sadə ifadə olunur: normal fəaliyyət üçün imkanların olmaması və çox dumanlı perspektivlər.
Ümumi vəziyyət indi aydın olduqdan sonra təfərrüatları nəzərdən keçirmək olar. Xarici şirkətlərin ölkəni tərk etməsinin əsas DÖRD SƏBƏBİ mövcuddur.
BİRİNCİ SƏBƏB – makroiqtisadi durğunluqdur (staqnasiya). Ölkə iqtisadiyyatında vəziyyət acınacaqlıdır. Onu qısaca aşağıdakı kimi səciyyələndirmək olar. Monetar islahatlar bazarda qeyri-adekvat alətin – manatın mövcudluğuna gətirib çıxardı. Çox bahalı və defisit olan manat demək olar ki, hiper inflyasiyanı ləngidib daxili bazarı sarsıtdı. Amma bu siyasətin daha bir ciddi çatışmazlığı vardır. Valyuta baha olduqca o, investisiyalarda bir o qədər də az istifadə oluna bilir. Çünki, investisiyalar idxal olunanda ucuzlaşır, kapital ixracında isə həcmi azalır. İnvestorlar məqbul olan rəsmi kurs arasındakı fərq böyük olduqca investisiya ilə məşğul olmaq istəyənlərin sayı getdikcə azalır.
İKİNCİ SƏBƏB – neft canlanmasının (bum) sona çatmasıdır. Azərbaycanı tərk edən şirkətlərin əksəriyyəti bu və ya digər dərəcədə neftlə bağlı olublar. 90-cı illərin əvvəlində Xəzər Fars körfəzi, Azərbaycan isə Küveyt təəssüratı yaradırdı. Yüzlərlə şirkət neft iyinə Bakıya təcili gəlmişdi. Onların sırasında servis və xidmət şirkətləri də az deyildi. Neft kontraktları bir-birinin ardınca ümidləri boşa çıxardıqca şirkətlər ölkəni tərk etəməyə başladılar. Neftin iri həcmi elə o boyda da iri sual altındadır, nümayəndəliklərin saxlanılması xərci isə büdcəyə ciddi ziyan vurur. Buna görə də bir çox şirkətlər xərcləri minimuma endirmək üçün Azərbaycandakı filiallarını ləğv edirlər. Bu, xırda firmalara aiddir, amma ölkəni yalnız onlar tərk etmir. İri şirkətlərin ölkədən getməsi o deməkdir ki, bizim qibtə olunmaz gələcəyimiz artıq onlara məlumdur. Bunu artıq gerçəkləşdirilən kontraktlardan savayı digər kontraktların kommersiya cəhətdən cəlbedici olmaması kimi anlamaq olar.
ÜÇÜNCÜ SƏBƏB – zəmanətin olmamasıdır. Hökumətin bizneslə mübarizə apardığı ölkədə qoyulan investisiyaların geri qayıdacağı üzrə zəmanət əsas rol oynayır. Belə zəmanət isə yoxdur. Biznes mühiti getdikcə pisləşir, biznes fəaliyyəti üçün şərait əvvəlki kimi yarıtmaz qalmaqdadır, bazar infrastrukturu mövcud deyildir, öz nəzarətindəki müəssisələr üçün güzəştli vergiqoyma rejiminin, rəqiblər üçün isə ağır vergi yükünün tətbiq edilməsinə gətirib çıxaran dövləti himayəçiliyi açıq-aşkar görünür. Belə şəraitdə yalnız investisiyalardan alınan yüksək gəlirlər hesabına investorları cəlb etmək olar, bu isə yuxarıda göstərilən səbəblərə görə mümkün deyildir.

DÖRDÜNCÜ SƏBƏB – məmurların dərəbəyliyi və hakimiyyət orqanlarının özbaşınalığıdır. Məlum səbəblərə görə ölkəmizdə əsl biznes yoxdur. İqtidar «özəl biznes»in 85%-ni nəzarətdə saxlayır. Ölkə həyatının və iqtisadiyyatının bütün sahələrini korrupsiya bürüyüb. Əslində bütün firma və təşkilatlar «töycü» verir. Bunun ölçüləri biznesin gəlirliliyindən asılı olaraq 50-80% həcmində olur. İqtisadiyyatın ən gəlirli sahələri bilavasitə siyasi rəhbərliyə tabedir. Bundan başqa, iqtidarın birbaşa nəzarətində olan müəssisələrin inhisarlaşmasını təmin etmək səyləri açıq-aşkar görünür. Azərbaycan qanunvericiliyi iqtidarın özbaşınalığı üçün geniş imkanlar yaratdığına görə bütün rəqib müəssisələr sıxışdırılıb aradan götürülür.
Göründüyü kimi, xarici şirkətlərin ölkədən getməsi üçün yetərincə səbəblər vardır. Düzünü desək, Azərbaycanda belə insafsız şəraitdə kiminsə hələ də biznes fəaliyyətini davam etdirməsi təəccüblü görünür.
Belə son dərəcə xoşagəlməz meyllərin inkişafının gətirib çıxaracağı nəticələri gözdən keçirək. Nəticələr olacaqdır və bunun hansı nəticələr olacağını təsəvvür etmək üçün münəccim olmaq lazım deyildir. Xarici şirkətlərin ölkədən getməsinin bir neçə nəticəsi olacaqdır.
İQTİSADİ NƏTİCƏLƏR. Bunlar son dərəcə xoşagəlməz nəticələrdir. Əgər iqtidar tərəfindən yaxın vaxtda bu meyllərin qarşısının alınması üçün ciddi tədbirlər görülməsə ölkə iqtisadiyyatına ciddi ziyan dəyəcəkdir. Xarici investisiyalar ölkə iqtisadiyyatına böyük fayda gətirir. Bu zaman multiplikator effekti işə düşür. Qoyulduğu sahədən asılı olaraq hər bir dollar 2-12 dollar fayda gətirir. Pulların qoyulmamasının birbaşa ziyanından başqa dolayı nəticələr də meydana çıxır. Beynəlxalq biznes dairələrində Azərbaycanın adına xələl gətirən, yəni Azərbaycanın biznes fəaliyyəti üçün əlverişsiz ölkə olması barədə rəy formalaşa bilər. Bunun nəticəsi aşkardır, belə ad qazanan ölkəyə heç kim investsiya etməz. İnvestisiyaların qoyulmaması ölkə iqtisadiyyatını süquta yetirər. O, investisiyalarsız inkişaf edə bilməz, xaricilər investisiya qoymur, yerlilərin isə imkanı yoxdur.
XARİCİ SİYASƏT NƏTİCƏLƏRİ. Sirr deyildir ki, məhz investisiya mühiti ölkəmizə Qərb ölkələri ilə yaxşı münasibətlər qurmağa imkan vermişdi. Qərb şirkətlərinin ölkədən getməsi Qərb ölkələrinin hökumətlərinin Azərbaycana münasibətinə təsir göstərə bilər. Bundan başqa, invenstisiya mühitinin korlanması beynəlxalq maliyyə qurumlarında birmənalı olmayan reaksiyanı doğura bilər və onların Azərbaycanla əməkdaşlığının ləğvinə gətirib çıxara bilər. Bu isə ucuz və mümkün kreditlərin əldən çıxması, Azərbaycana lap aşağı səviyyəli investisiya reytinqinin və hətta qeyri-bazar iqtisadiyyatdlı ölkə statusunun verilməsi deməkdir.
SOSİAL NƏTİCƏLƏR. Bunlar da yetərincə xoşagəlməz nəticələrdir. Hər bir şirkətin ölkədən getməsi onlarla, yüzlərlə yüksək maaşlı iş yerlərinin ləğvi deməkdir. Bundan əlavə xarici personalın yaşaması və qidalanması xərclərinin də ləğvidir. Bu isə bir çox müəssisələri xaricilərin tələbatının ödənilməsinə işləyən xidmət sahəsinin fəaliyyətinin kəskin azalmasına gətirib çıxaracaqdır. Nəticədə hamı ziyan çəkəcəkdir. Yüksək gəlirli müştərilərdən məhrum olan küçə qadınlarından tutmuş on milyonlarla dollar itirmiş ölkə büdcəsinə qədər.
Belə şəraitdə iqtidarın reaksiyası və daha doğrusu heç bir reaksiyanın olmaması təəccüb doğurur. Belə təsəvvür yaranır ki, bu şərait iqtidarı qane edir. Çox ehtimal ki, bu elə belə də vardır.İqtidarla kapitalın birləşməsi əslində başa çatıb, indi də iqtidar xaricilərə arzuolunmaz və çox təhlükəli rəqib kimi baxır. Əhalinin daim azalan gəlirləri şəraitində milli istehlak qazanı uğrunda ciddi mübarizə gedir. Bu mübarizədə iqtidar öz gəlirləri naminə hər cür addıma hazırdır.
Xarici şirkətlərin ölkəni tərk etdiyi zaman həyəcan təbili çalınmalıdır. Oxşatmaq istəməzdik, amma hamıya bəllidir ki, siçovullar BATAN gəmini tərk edir. Beləliklə də demək olar ki, iqtidar opponentlərinin haqqında uzun müddət bolluca danışdığı və iqtidarın da inadla inkar etdiyi iqtisadi böhran gerçəkləşməkdədir.

Ölkə yavaş-yavaş, amma həqiqətən də sosial-iqtisadi kollaps vəziyyətinə düşməkdədir. Yalançı sakitlik heç kimi aldatmır, çünki onu iqtisadçı qulağı ilə dinlədikdə yaxınlaşan və milli iqtisadiyyatı darmadağın edəcək tufanın uğultusunu eşitmək olar.